

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Nəxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 221 (21.122)

*20 noyabr 2014-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da İordaniya Haşimilər Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nassar Al-Habaşnehin etimadnaməsini qəbul edib.

Nassar Al-Habaşneh etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

İordaniyalı diplomat ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev əlaqələrimizin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

## Naxçıvan Şəhər Məhkəməsinin sədri H.M.Məmmədovun iş yerinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərinə və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq **qərara alıram:**

Hüseyn Məmməd oğlu Məmmədov Naxçıvan Şəhər Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi və sədri təyin edilsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 noyabr 2014-cü il*

## "Muxtariyyət ili" ilə əlaqədar açıq dərslər davam etdirilir



***Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə Heydər Əliyev Muzeyində və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində açıq dərslər davam etdirilir.***

Dünən Naxçıvan Tibb Kollecinin tələbələrinin iştirakı ilə Heydər Əliyev Muzeyində keçilən açıq dərsdə kollecin tarix müəllimi Xanım Kazımova bildirib ki, ötən əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etsə də, bu müstəqilliyi qoruyub saxlamaq heç də asan olmayıb. Müstəqilliyimizin ilk illərində ölkəmiz yeni geosiyasi vəziyyətin diktə etdiyi ciddi siyasi, iqtisadi, sosial və idarəçilik problemləri ilə qarşılaşıb. Ermənistanın hərbi təcavüzünün nəticəsi kimi ortaya çıxan Dağlıq Qarabağ problemi və iqtisadi tənəzzül, hüquqi qeyri-müəyyənlik, siyasi təlatümlər cəmiyyəti idarəolunmaz vəziyyətə gətirib. Yalnız 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təlatümlər burulğanından xilas edib, onun siyasi uzaqgörənliyi, möhkəm iradəsi, dövlət idarəçiliyi sahəsində zəngin təcrübəsi ölkəmizi fəlakətdən qurtarıb.

Qeyd olunub ki, o dövrdə müdrik rəhbərin qısa zaman kəsiyində həyata keçirdiyi tədbirlərlə cəbhə xəttində atəşkəsə nail olunub, qanunsuz silahlı dəstələr zərərsizləşdirilib, dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alınıb. Bununla da, respublikada stabil, normal həyat bərqərar olunub. Sabitlik əldə olunandan sonra dövlət quruculuğu istiqamətində mühüm addımlar atılıb, əhəmiyyətli qərarlar qəbul edilib. Ölkə iqtisadiyyatının dirçəlişi yönündə ötən dövr ərzində qəbul edilən proqramlar respublikamızın bütün regionlarını, o cümlədən Naxçıvan Muxtar Respublikasını da əhatə edib. Muxtar respublikamızın 1995-ci ildən başlanan sürətli sosial-iqtisadi inkişafı onu Azərbaycanın ən sürətlə inkişaf edən lider regionuna çevirib.

Vurğulanıb ki, bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılan nailiyyətlər qürur doğurur. Ən qürurverici hal odur ki, müstəqilliyimiz əbədi, sarsılmaz xarakter alıb.

Sonda açıq dərsin iştirakçıları muzeyin ekspozisiyası ilə tanış olublar.

Dünən həmçinin Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin şagirdləri də Heydər Əliyev Muzeyində olub, açıq dərsdə iştirak ediblər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində də açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin II kurs tələbələri iştirak ediblər. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Eradan əvvəl VI-I minilliklərdə Naxçıvanda etnik-mədəni proseslər" mövzusunda mühazirə oxuyub.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb, mərkəzlə yaxından tanışlıq olub.

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümü qeyd olunub

***Yeni Azərbaycan Partiyasının yaradılmasının 22-ci ildönümü ilə əlaqədar partiyanın Şərur Rayon Təşkilatında tədbir keçirilib.***

Tədbirdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev geniş məruzə ilə çıxış edərək bildirib ki, 1992-ci il noyabrın 21-də ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı qismində çıxış edərək xalqın dərin inamını qazanıb.

"Heydər Əliyev dühasının Yeni Azərbaycan Partiyasının proqramında ifadəsini tapmış dövlətçilik strategiyası son 22 ildə bütün istiqamətlərdə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənib. Bu müddətdə hüquqi dövlət quruculuğu, ölkənin iqtisadi və sosial inkişafı, Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülən işlər bütünlüklə müstəqilliyin möhkəmləndirilməsinə yönəldilib. Bütün bunlar isə cəmiyyətdə Yeni Azərbaycan Partiyasına olan ictimai inamı, etimadı daha da gücləndirib və sarsılmaz edib", – deyən təşkilat sədri onu da vurğulayıb ki, ötən 22 ildə YAP-ın cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz siyasi qüvvə kimi qəbul olunması da məhz partiyanın Heydər Əliyev ideyalarına söykənməsi ilə bağlıdır.

Qeyd edilib ki, 2003-cü ildən ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttini inamla davam etdirən, sədri olduğu Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki mövqelərini daha da möhkəmləndirən Prezident İlham Əliyevin ictimai rəydəki statusunun möhkəmlənməsinə təsir göstərən ən mühüm məqamlardan biri dövlət rəhbərimizin kifayət qədər təkmil siyasi təlimə – ulu öndər Heydər Əliyevin milli dövlətçilik fəlsəfəsinə istinad etməsidir. Bu təlim Azərbaycanın müstəqilliyinə, onun əbədi, dönməz xarakter daşımasına təminat verib. Dövlət başçısı cənab İlham Əliyev qısa zamanda yeni əsrin, yeni zamanın lideri kimi sübuta yetirib ki, xalq taleyini ona etibar etməklə heç də yanılmayıb.

Təşkilatın fəaliyyəti barədə ətraflı məlumat verən Əmir Babayev tədbir iştirakçılarının nəzərinə çatdırıb ki, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibində 163 ilk partiya təşkilatı fəaliyyət göstərir. Bunlar 63 kənd ərazi ilk təşkilatı, 64 məktəb, 36 idarə və müəssisə ilk təşkilatıdır. Rayon təşkilatı öz sırasında 10 min 576 nəfər partiya üzvünü birləşdirir. Onlardan 2917 nəfəri qadınlar, 3661 nəfəri isə gənclərdir. Partiya üzvləri ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş yolun muxtar respublikada uğurla həyata keçirilməsində fəallıq göstərirlər.

Sonra məruzə ətrafında Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı İdarə Heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Nüsrət Həsənov, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Orxan Məmmədov və başqaları çıxış ediblər.

Sonda partiya sıralarına qəbul edilmiş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

**Xəbərlər şöbəsi**

***Noyabrın 19-da Naxçıvan Dövlət Universitetində "23 dekabr 2014-cü ildə keçiriləcək bələdiyyə seçkilərində ilk dəfə səs verəcək vətəndaşlara seçki hüquqlarının izahı" mövzusunda seminar keçirilib.***

## İlk dəfə səs verəcək gənc seçicilərin iştirakı ilə seminar keçirilib



Seminarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məhərrəm Qasımov bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti və seçki günü səsvermə qaydaları haqqında danışıb. Bildirilib ki, builki bələdiyyə seçkiləri ilə dördüncü dəfədir, ölkəmizdə bələdiyyələrə seçkilər keçirilir. İlk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bələdiyyə institutu yaradılıb və ilk bələdiyyə seçkiləri 1999-cu il dekabrın 12-də keçirilib. Bu il keçiriləcək seçkilərdə 171 bələdiyyəyə 1453 nəfər üzvün seçilməsi nəzərdə tutulur. Bələdiyyə üzvlərinin sayının çoxalması muxtar respublikada əhalinin sayının artması ilə əlaqədardır.

MSK sədri qeyd edib ki, muxtar respublikada mövcud olan 7 seçki dairəsinin hamısı yeni, yüksək standartlara cavab verən inzibati binalarla təmin olunub.

Seçici siyahılarının hazırlanması və dəqiqləşdirilməsindən də danışan Məhərrəm Qasımov bildirib ki, seçkilərin azad, şəffaf, ədalətli keçirilməsi üçün seçici siyahılarının dəqiqləşdirilməsi önəmlidir. Hər il olduğu kimi, bu il də Azərbaycan seçicilərinin illik siyahıları tərtib edilib. Muxtar respublika üzrə 256 min 331 seçici var və onların adları siyahılara daxil edilib. Əlbəttə, istisna deyil ki, siyahılara düşməyən seçicilər olsun. Ona görə də bu problemi aradan qaldırmaq üçün Seçki Məcəlləsinin yaratdığı imkanlar sayəsində seçicilər seçki günü daxil olmaqla heç bir məhdudiyyət olmadan siyahılara daxil edilə bilərlər. Amma bu məsələnin də qanuni əsasları var. Yeni seçicilər daimi və müvəqqəti qeydiyyatda olduqları yerlərdə siyahılara daxil edilməlidirlər. Seçici siyahıları tanışlıq üçün səsvermə gününə 35 gün qalmış seçki məntəqələrindən asılacaq. İstənilən şəxs öz adının siyahıda olub-olmadığını yoxlaya bilər. Hətta səsvermə günü belə, seçici məntəqə komissiyasına müraciət etməklə problemi həll etmək hüququna malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin böyük məsləhətçisi İsmayıl Qəribli "Seçki hüquqlarının pozulmasına görə məsuliyyət nəzərdə tutan qanunvericilik sistemi və məsuliyyət növləri", Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aparat rəhbəri Yunis Xəlilov "Seçki hüququnun təminatının qanunvericilik əsasları və məhkəmə müdafiəsi" mövzularında çıxışlar ediblər.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi Elnur Eyvazov seçkilərdə iştirakın prinsipləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda gənclərin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***



***Zamanın ən qısa kəsimləri – aylar, illər. Aylar illərə dönür, illər qərinələr yaradır. Elə aylar, illər var ki, qum dənələri kimi barmaqlar arasından axıb tökülür, heç bir iz qoymadan ötüb keçir. Aylar, illər də var ki, xalqın tarixinə silinməz iz olaraq düşür, əsrlər keçsə də, o illər haqqında fəxrlə, qürurla söhbət açılır.***

# Blokada və intibah

Naxçıvan Muxtar Respublikasının bu il 90 illik yubileyinin təntənəli surətdə qeyd olunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 yanvar 2014-cü ildə imzaladığı "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2014-cü il 17 yanvar tarixli Sərəncamla təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı" ötən dövrün zəngin çalarlarla dolu olan tarixinə hörmət və ehtiramın ifadəsidir.

Muxtariyyət statusu qazandıqdan sonra muxtar respublikanın tarixində köklü dəyişikliklər olması bu günün reallığıdır. Həmin reallığın tərkib hissəsi olan son 19 il isə Naxçıvanın muxtariyyət tarixinin ən şərəfli səhifəsini təşkil edir. Bu dövr Naxçıvan Muxtar Respublikasında hərtərəfli inkişafın yeni yüksəliş dövrü, yaxud da çətin blokada şəraitində intibah yaratmağın mümkünlüyünün isbatı mərhələsi, dövlət idarəçiliyinin Naxçıvan modelinin formalaşdırılması illəri kimi xarakterizə edilir. Naxçıvan inkişaf və tərəqqi dövrünün ən yüksək zirvəsində qərar tutub. Bu zirvəyə isə qalxmaq o qədər də asan olmayıb. Keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərini yaşlı və orta nəsil yaxşı xatırlayır. O dövrdə naxçıvanlılar tarixin ən ağır sınaqlarından keçdi. Blokadanın çətinliklərinə baxmayaraq, onların qurub-yaratmaq əzmi sınmadı, naxçıvanlılar dədə-baba əmanəti olan torpaqlarını göz bəbəkləri kimi qorudular. İşıqsız da qaldılar, yandırmağa yanacaq da tapmadılar. Hətta çörəklə imtahana da çəkildilər. Ancaq bütün bu çətinliklərə dözərək doğma diyardan üz döndərmədilər. Hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına ümidlərini itirmədilər. İşıqlı gündüz isə uzaqda deyildi...

1995-ci ilin son ayları. Baş verən siyasi hadisələr naxçıvanlıların hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağı ümidlərini özlərinə qaytardı. Bu ümid onlarda sabaha inam yaratdı. O inam sarsılmadı. İndi muxtar respublika sakinləri qovuşduqları bu xoş günlərin işığında dönüb o illərə baxanda aradan ötən müddət ərzində sürətli inkişaf yolu keçən, gözəlləşən, müasirləşən muxtar respublika ilə qürur hissi duyurlar. Niyə də duymasınlar? Çünki çox da uzaq olmayan yaxın keçmişdə ən ağır tarixini yaşayan Naxçıvan erməni təcavüzündən



Babək rayonunun Qahab kəndi

və iqtisadi çətinliklərdən xilas olub nümunəvi bir bölgəyə çevrilib. Ölkə Prezidentinin adıçəkilən sərəncamında da qeyd edildiyi kimi, bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır.

Daha xoş sabahlara böyük inamla addımlayan Naxçıvan inkişafı ilə düşmənin gözdağına çevrilib. Bunun əsas səbəbi isə yurda bağlılıq, onu daha gözəl görmək arzuları, muxtar respublika sakinlərinin yaxşı yaşamasının prioritet vəzifəyə çevrilməsi, ən başlıcası isə görülən işlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sözləri ilə desək: ***"Naxçıvan Muxtar Respublikasında inkişafın bir səbəbi var: bu, böyük yaradıcı gücə malik olan Heydər Əliyev ideyalarının, Heydər Əliyev quruculuq xəttinin davam etdirilməsidir".***

Bəli, 1995-ci ilin dekabr ayından muxtar respublikada bir yol, bir platforma seçildi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi həmin yol Naxçıvan Muxtar Respublikasını əsl inkişafa qovuşdurdu. Əlbəttə, son 19 ildə qazanılan nailiyyətlərin, uğurların kökündə gərgin siyasi əməli fəaliyyətin dayandığı danılmazdır. Bəhs edilən dövrdə verilən tapşırıqların, nəzərdə tutulmuş tədbirlərin vaxtında və yüksək keyfiyyətlə həyata keçirilməsi nəticəsində bu gün muxtar respublikada bütün sahələrdə baş verən əsl intibahdan saatlarla danışmaq olar...

Bəs 1995-ci ildən indiyə kimi hər gününə ayrı-ayrılıqda nəzər saldıqda nələr görmək olar muxtar respublikada? Böyük qürurla söyləyə bilərik ki, tarixdə görünməmiş işlər görülüb Naxçıvanda – blokada şəraitində intibaha nail olunub. Bu gün saydıqca bitməyən uğurların, inkişaf və tərəqqinin məskənidir Naxçıvan. Buna görə ulu diyarım məğrurdur, qürurludur, əyilməzdir. Geridə qoyduğu çətin sınaqlar onun üçün sonu xoşbəxtliklə bitən qəhrəmanlıq dastanıdır.

Bəli, geridə qalan çətinliklər... 19 il bundan əvvəlki Naxçıvan. Bu dövrü daha dolğunluqla göstərmək üçün dövrün salnaməsi sayılan mətbuat səhifələrinə nəzər yetiririk. "Şərq qapısı" qəzetinin 1995-ci ilin ilk aylarının nömrələrində muxtar respublikanın o zamankı ağır vəziyyəti



Şahbuz şəhəri

ürəkağrısı ilə qələmə alınıb. "Tək əldən səs çıxmaz", "Çörək dalınca getməkdənsə" və başqa məqalələrdə muxtar respublikanın çətin günlərdə yaşadığı açıq-aydın görünür. Məqalələrin birində yazılır ki, həqiqətən, son illər şəhərimizin siması adama heç də xoş gəlmir. Küçə-bacalar, xiyabanlar toz-torpaq, zir-zibil içərisindədir. Çox yerdə antisanitariya vəziyyəti hökm sürür. Elə bu məqamdaca gələk 1996-cı ilin fevral ayına. Mövcud vəziyyət nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisində yaşıllıqların qorunması və genişləndirilməsinə həsr olunmuş müşavirənin keçirilməsi ilə regionda yaşıllaşdırma tədbirlərinə start verildi. O zamandan indiyə kimi yüz minlərlə ağac əkilib. Meşə ehtiyatları dəfələrlə artırılıb, yüzlərlə hektar ərazidə meyvə bağları salınıb. Bu tədbirlərlə yanaşı, regionda böyük quruculuq tədbirləri gerçəkləşdirilib. Bir zamanlar bir neçə məhəllədən ibarət, öz əzəmətli keçmişini bir-iki tarixi abidəsi ilə xatırladan Naxçıvan bu gün öz görünüşü ilə Şərq memarlığı zəminində ucaldılmış Avropa şəhərlərindən heç də geri qalmır. "Ərazicə kiçik, mənəviyyatca böyük olan" doğma diyarımız indi Nuh əyyamından, Atabəylər dövlətindən XXI əsrə qədər keçdiyi yolda ən uca zirvəni fəth edib. Bu gün hər tərəfdə səliqə-sahman, təmizlik hökm sürür. Parklarda, küçələrdə, xiyabanlarda sayrışan işıqlar göy üzündəki ulduzları xatırladır. Əvvəllər qaranlıq, zülmət içində yaşayan Naxçıvanın bu gününü ölkə başçısı İlham Əliyev belə xarakterizə edir: ***"O Naxçıvan ki, əvvəllər qaranlıq, zülmət içində yaşayırdı. Bu gün Naxçıvan nurlu, işıqlı şəhərdir".***

19 ildir ki, muxtar respublikada əsas istiqamət götürülən sahələr içərisində təhsilə və orduya diqqəti xüsusi vurğulamaq lazımdır. 1996-cı il sentyabrın 2-də Babək rayonunun Cəhri kəndində yeni istifadəyə verilən məktəb binasının açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri də yaşadığımız bu ağır dövrdə iki sahəyə diqqəti yönəltməyin vacibliyini önə çəkdi. Qeyd edildi ki, belə olmazsa, bizim gələcəyimiz şübhə altında qalar. Orduya ona görə diqqət yetirməliyik ki, respublikamız Ermənistanla müharibə vəziyyətindədir. Biz ərazi bütövlüyümüzü, sərhədlərimizin toxunulmazlığını təmin etməliyik. Təhsilə ona görə diqqət yetirməliyik



Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası

ki, uşaqlar bizim gələcəyimizdir. Bu iki sahəyə biz qayğını heç vaxt əsirgəməməliyik.

19 il bundan əvvəl muxtar respublikada müasir tələblərə cavab verən məktəb binaları barmaqla sayılacaq qədər az idi. İndi isə təkcə Naxçıvan şəhərində deyil, ən ucqar dağ kəndlərində belə, ən müasir məktəb binaları tikilir, onların maddi-texniki bazaları gücləndirilir, yeni informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində saxlanılır. Məktəblilər pulsuz dərsliklərlə təmin olunurlar. Tədris ocaqlarında fəaliyyət göstərən kitabxanalar da eləcə. Təkcə bir faktı qeyd edək ki, son 10 ildə muxtar respublikada 132 məktəb binası tikilərək və ya əsaslı təmir edilərək istifadəyə verilib. Ümumtəhsil məktəblərinə 3580 kompüter dəsti verilib, hər 12 şagird bir kompüterlə təmin olunub. Təhsil müəssisələrindəki kompüterlərin 85 faizi internetə qoşulub, 600-ə yaxın elektron lövhə quraşdırılıb. Bütün bunların nəticəsidir ki, təhsildə keyfiyyət göstəricisi ilbəil artır. Əgər 2013-cü ildə tələbə adını qazananların 312-si 500-dən yuxarı bal toplayıbsa, 2014-cü ildə 347 abituriyent 500-700 intervalında yüksək nəticə göstərib. Müqayisə üçün qeyd etmək olar ki, 1995-1996-cı tədris ilində bu göstərici 5 nəfər olub. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Fərmanının icrası ilə əlaqədar olaraq, muxtar respublikamızdan, ümumilikdə, 56 tələbə Prezident təqaüdünə layiq görülüb.

Muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla yanaşı, bütövlükdə, müstəqil Azərbaycanda milli ordu quruculuğu prosesinin başlanğıcı olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı artırılır. Onu da qeyd etmək yerinə düşər ki, son on ildə muxtar respublikada 160-dan çox hərbi obyekt tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Muxtar respublikamızda ordumuza arxalanan ən ucqar sərhəd kəndlərinin sakinləri düşməndən qorxmadan, çəkinmədən əkib-becərir, qurub-yaradırlar. Arxayındırlar, bilirlər ki, düşmənə hər an tutarlı cavab verməyə qadir olan güclü Azərbaycan Ordusu vardır.

Naxçıvan Muxtar Respublikasının inkişafı ilə bağlı statistik rəqəmləri bir qəzet səhifəsinə sığdırmaq mümkün deyil. Amma bu rəqəmlərin arxasında, yuxarıda da qeyd etdiyimiz kimi, böyük zəhmət, Heydər Əliyev yoluna sədaqət, sabaha cavabdehlik hissi, güclü təşkilatçılıq məharəti və idarəçilik qabiliyyəti, Vətənə, xalqa bağlılıq dayanır. O yerdə Vətənə, yurda bağlı əsl rəhbər vardırsa, orada hər cür möcüzələr yaratmaq olar. Elə doğma Naxçıvanımız kimi. Burada ölkə Prezidentinin sözləri yada düşür: ***"Əsl siyasət real və konkret iş görməkdən ibarətdir".*** Real və konkret iş görmək üçün isə doğulduğun torpağa qəlbən bağlı olmalısan, mənsub olduğun xalqın yolunda bütün qüvvəni sərf etməkdən yorulmamalısan. Hələ 1999-cu ildə, Naxçıvan Muxtar Respublikasında yeniləşmə və inkişafın ilkin nəticələri nəzərə çarpdığı dövrdə Azərbaycan Respublikasının rəhbəri, görkəmli dövlət xadimi Heydər Əliyevin Ali Məclisdə keçirilən görüş zamanı dediyi aşağıdakı sözlər muxtar respublika rəhbərinin inkişaf və tərəqqi yolundakı atdığı addımların düzgün müəyyənləşdirildiyinin təsdiqidir: ***"Mən ümumiyyətlə demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşirdim ki, gəncliyinə görə, bəlkə də, ağır, çətin olar. Ancaq o sübut etdi ki, Vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər".***

Bəli, fədakarlıqdan çox şey asılıdır. 19 il əvvəl elektrik enerjisi çatışmırdı. Bu gün isə Naxçıvan elektrik enerjisi ixrac edən regiona çevrilib. 2003-cü ilə qədər muxtar respublikada 1 su elektrik stansiyası vardısa, indi 6 yeni elektrik stansiyası yaradılıb. İndi bütün evlərdə mavi qaz şölələnir. Əgər Sovetlər Birliyi dövründə muxtar respublika üzrə cəmi 33 min abonentə təbii qaz verilirdisə, indi artıq 82 mindən çox abonent təbii qazla təmin olunur. Artıq muxtar respublikanın sərt qışı insanları qorxutmur. "Qışa yaydan hazırlıq görülməlidir" prinsipi ilə uzun illərdir, muxtar respublikada payız-qış mövsümünə ciddi hazırlıq görülür. Qar dizə qədər yağsa da, əhali istiliklə təmin olunur. Lakin xalqın qəlbini isidən qaz və elektrik enerjisi yox, dövlətin vətəndaşlarına olan xoş münasibəti, diqqət və qayğısıdır.

Blokadada olan Naxçıvanda bu sadalananların reallaşması üçün yollar axtarılıb, əziyyətə qatlaşılıb, böyük inqilabi yeniləşməyə nail olunub. Torpaq islahatının muxtar respublikamızda uğurla başa çatdırılmasının, zəhmət adamlarına göstərilən qayğının nəticəsi olaraq, əkin sahələri ildən-ilə genişləndirilir, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin söylədiyi kimi, əhalinin yerli məhsullarla təminatının vacibliyi məsələsi öz həllini tapır. Bu isə əhalinin məşğulluğu sahəsində həyata keçirilən işlərin məntiqi davamı, insanların sağlam, keyfiyyətli qida məhsulları ilə təminatının qeydinə qalınmasının göstəricisidir. Hazırda muxtar respublikada 352 növ və 1032 çeşiddə məhsul istehsal olunur. Yeni yaradılan müəssisələr əhalinin 107 növ ərzaq və 229 növ qeyri-ərzaq məhsullarına olan tələbatını tamamilə yerli istehsal hesabına ödəmək imkanına malikdir. Ölkə Prezidenti muxtar respublikaya səfəri çərçivəsində muxtar respublikada iqtisadiyyatın inkişafı istiqamətində həyata keçirilən tədbirləri yüksək dəyərləndirərək deyib: ***"...Naxçıvanda sərgilənən yerli istehsal nümunələri ilə də tanış olmuşam. O sərgidə Naxçıvanda son illər ərzində yaradılmış müəssisələrin məhsulları nümayiş etdirilirdi. Bu da çox sevindirici haldır. Çünki yerli istehsal artır. Naxçıvanın sənaye potensialı artır, ixrac artır və Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranmışdır. ...Bu da böyük nailiyyətdir, böyük uğurdur".***

Bu gün muxtar respublikanın rayonlarının və kəndlərinin siması tamamilə dəyişilib. Mütəxəssislər də təsdiq edirlər ki, şəhərsalma və quruculuq prosesində qədim və zəngin ənənələrə malik Ordubadda Şərq ənənələri, yeni salınan Kəngərlidə Qərb elementləri, Araz kənarında yerləşən Culfada Şərq-Qərb ünsürləri ağırlıq təşkil edir. Rayon mərkəzlərimizlə yanaşı, ucqar, sərhəd kəndlərimizdə də müasirtipli məktəb binalarının, həkim ambulatoriyalarının, kənd mərkəzlərinin tikilməsi,

*Ardı 3-cü səhifədə*


Naxçıvan şəhərində yeni yaşayış binaları

yolların, körpülərin yeniləşdirilməsi muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən quruculuq tədbirlərinin tərkib hissəsidir. Bu isə kəndlərdə şəhər rahatlığının yaradılmasında başlıca stimuldur. Torpağı və hərtərəfli şəraiti olan kənd adamı bu gün dövlətin dəstəyini, qayğısını hiss edərək yaşayır. Dövlət ona əkmək, biçmək, istehsal etdiyi məhsulu satmaq, ümumilikdə, yaxşı yaşamaq üçün şərait yaradıb. Bu yerdə kənd mərkəzlərinin tikilməsini xüsusilə qeyd etməliyəm. Yerli idarəçiliyin əsas ünvanı sayılan bu cür tikililər muxtar respublikamıza məxsus bir yenilikdir. Son illərdə 100-dən çox qəsəbə və kənd mərkəzi tikilərək istifadəyə verilmişdir. Artıq kəndli bu və digər iş üçün başqa yerə üz tutmur. Çünki ona lazım olacaq hər bir təşkilat, o cümlədən icra nümayəndəliyi də, bələdiyyə də, baytarlıq məntəqəsi də, kitabxana da, sahə müvəkkili də, bir sözlə, hamısı kənd mərkəzindədir.

Xüsusilə qeyd etməliyəm ki, son 19 il ərzində yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar muxtar respublikamızın yarandığı 1924-cü ildən 1994-cü ilədək – yəni 70 illik zaman məsafəsində əldə olunanları xeyli üstələyir. Əgər 1924-1994-cü illərdə muxtar respublikada 46 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, son 19 il ərzində yeni istifadəyə verilən istehsal müəssisələrinin hesabına onların sayı 10 dəfə artaraq 439-a çatıb. Kənd təsərrüfatında əkin sahələrinin həcmi 41 min 100 hektardan 1,5 dəfə artaraq 60 min 829 hektar, taxıl istehsalının həcmi 23 min tondan 4,5 dəfə artaraq 103 min ton, kartof istehsalının həcmi 0,9 min tondan 46 dəfə artaraq 41,4 min ton olub. 1994-cü illə müqayisədə 2014-cü ilin ötən dövrü ərzində əhali gəlirlərinin həcmi 48 dəfə artaraq 25 milyon 632 min manatdan 1 milyard 226 milyon 742 min manata, hər bir nəfərə düşən gəlirlərin həcmi isə 25 dəfəyədək artaraq 113 manatdan 2806 manata çatıb.

Bütün bunlar onu göstərir ki, muxtar respublikada insan amili ön planda dayanıb. Bu baxımdan region sakinlərinin sağlamlığının qorunması prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Naxçıvan səhiyyəsinin intensiv inkişaf dövrü kimi xarakterizə olunan 1995-2014-cü illərdə ayrı-ayrı şəhər, qəsəbə və kəndlərdə 220-dən çox səhiyyə obyekti tikilib istifadəyə verilib.

Mənzil insan həyatında məişət şəraitinin əsas göstəricisidir. Muxtar respublikada tikinti sektorunun əsas istiqamətlərindən birini də elə əhalinin yeni mənzillərə olan tələbatını ödəmək təşkil edir. Ötən dövr ərzində Naxçıvan şəhəri də daxil olmaqla, digər rayon mərkəzlərində də yüzlərlə yaşayış binası əsaslı təmir olunub, mənzillərin sahəsi genişləndirilib, binaların əksəriyyətinin təmiri möhkəmləndirilərək əlavə mərtəbələr artırılıb, binalar müasir kommunikasiya xətləri ilə təmin edilib. Əlbəttə ki, yaradılan şərait yaşayış binaları sakinlərinin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədini daşıyır. Çox uzağa getməyək. Noyabrın 11-də Şərur rayonunda sakinlərə 20 mənzilin təqdim olunması, noyabr ayının 14-də isə Naxçıvan şəhərində 25 mənzilli binanın istifadəyə verilməsi, ailələrin mənzil şəraitinin yaxşılaşdırılması dövlətimizin insan amilinə göstərdiyi qayğının daha bir ifadəsidir. Ümumiyyətlə, hansı kateqoriyadan insan olursa-olsun, muxtar respublika rəhbərinin diqqət və qayğısı əhatəsindədir. Elə oktyabr ayında Şərur rayonunun Axura kənd sakini, ahıl vətəndaş Quba Abbasova üçün fərdi yaşayış evinin tikilərək istifadəyə verilməsi qayğıya ehtiyacı olan vətəndaşlarımıza göstərilən diqqətin göstəricisidir. Həmin ay Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin istifadəyə verilməsi ilə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar da təhsil almaq imkanı əldə ediblər. Bu günlərdə hərbi xidmət zamanı sağlamlıqlarını itirmiş Şərur rayonunun Çomaxtur kənd sakinləri Rəşad


Naxçıvan Dövlət Universiteti

Şahtaxtinski və Nəbi Nəcəfov üçün fərdi evlər tikilməsi dediklərimizin təsdiqidir. Belə tədbirlərin sayını istənilən qədər artırmaq olar.

Muxtar respublikada 1995-2014-cü illərdə bütün sahələr kimi, mədəniyyət sahəsi də əsl intibaha qovuşub. Naxçıvan Muxtar Respublikasında 350-dən yuxarı mədəniyyət obyektinin tikilib istifadəyə verilməsi və ya bərpa edilməsi regionda mədəniyyətin inkişafına real təminat yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı xalq yaradıcılığının ayrı-ayrı sahələrinə yeni həyat bəxş edib. Unudulmaqda olan tikmə, döymə, toxuma, oyma sənəti sahələrinə yeni həyat verilib, milli mətbəxin ön mövqeyə çıxarılması təmin olunub.

Deyirlər, kimliyini bilmədən, keçmişini tanımadan gələcəyi qorumaq özülsüz qala ucaltmağa bənzəyir. Elə ümummilli lideri narahat edən məsələlərdən biri də bu idi. Ulu öndər çıxışlarının birində həmin məsələyə xüsusilə toxunaraq deyib: ***“Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi barədə çox az iş görülübdür”.*** Bu gün muxtar respublika ərazisində aparılan tədqiqatlar, əldə olunan elmi nəticələr, mühüm elmi nəşrlərin hazırlanması ulu öndərin arzularının gerçəkləşməsi, Naxçıvanın qədim tarixinin öyrənilməsi sahəsində qarşıya qoyduğu vəzifələrin uğurla yerinə yetirilməsinin göstəricisidir. Muxtar respublika rəhbərinin təşəbbüsü və göstərişi ilə hazırlanıb çap edilmiş ikicildlik “Naxçıvan Ensiklopediyası”, “Naxçıvanın Tarixi Atlası”, Azərbaycan və ingilis dillərində nəşr olunan “Naxçıvan Abidələri Ensiklopediyası”, muxtar respublikanın “Qırmızı kitabı” Azərbaycan elminə verilən böyük töhfələrdir. Son illər Naxçıvanda beynəlxalq elmi simpoziumların keçirilməsi bu qədim diyarın qədim tarixi və mədəniyyətinin, flora və faunasının araşdırılmasına sanballı töhfələr verib. Naxçıvan 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı kimi çox əhəmiyyətli bir missiyanı yerinə yetirəcək. Bütün bunlar Azərbaycan elminə dəyərli töhfələr olmaqla yanaşı, həm də elə qonşuluqdakı düşmən Ermənistanın Naxçıvana qarşı haqsız ərazi iddialarına ən tutarlı cavablardır.

Beynəlxalq tədbirlərdən söz düşmüşkən onu da qeyd edək ki, Naxçıvan son 19 ildə müxtəlif beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Mütəxəssislərin fikrincə, hər hansı bir ölkədə beynəlxalq yarışlar keçirilərkən 3 əsas meyar nəzərə alınır. İlk növbədə, həmin ölkədə idmanın inkişafı, ikincisi, bu sahədə maddi-texniki bazanın vəziyyəti, üçüncüsü isə təşkilatçılıq. Sevindirici haldır ki, bütün bunlar muxtar respublikada yüksək səviyyədədir. Hazırda muxtar respublikada 1042 idman müəssisəsinin və sadə idman qurğularının fəaliyyət göstərməsi bu sahəyə qayğının ən böyük ifadəsidir. Ümumilikdə, muxtar respublikamızda son illərdə 40-dan çox idman obyekti tikilərək, yenidən qurularaq və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilib. Həmçinin muxtar respublikamızda istifadəyə verilən yeni məktəb binalarında ən müasir standartlara cavab verən idman zalları yaradılıb. Bu həm də muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının əyani ifadəsidir.

Bütün bunlar göstərir ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən quruculuq xətti regionumuzda daha böyük əzmkarlıqla həyata keçirilir. Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə bu il aprelin 8-də Heydər Əliyev Sarayında keçirilən Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə dəfələrlə səsləndi. Cənab Prezidentin çıxışı qürurumuzun zirvə nöqtəsi oldu. Ölkə rəhbərinin söylədiyi fikirlər bu qədim və gözəl diyarın sakini olaraq sevincimizə sevinc, qürurumuza qürur qatdı. Muxtar respublikanın hökumət nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi bu yubiley mərasimi muxtar respublikanın 90 illik tarixinə ən mühüm hadisə kimi yazıldı. Mərasimdə dəfələrlə qeyd olundu ki, muxtar respublikamız bu gün, sözün əsl mənasında, intibah dövrünü yaşayır. Düzdür, ölkəmizin hər bir bölgəsi dövlətimizin xüsusi diqqət və qayğısı əhatəsindədir. Lakin muxtar respublikamızın blokada şəraitində yaşadığını nəzərə alsaq, burada sosial-iqtisadi inkişaf sahəsində qazanılan uğurlar insanı heyrətləndirməyə bilmir. Mərasimdə ölkə başçısı bunu xüsusilə vurğulayaraq dedi: ***“...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır”.***

**_P.S._ Tarix üçün 90 illik zaman kəsiyinin qədim Naxçıvana bəxş etdiyi əbədi yaşamaq hüququ muxtariyyətin bəhrəsidir. Bu 90 illik zaman müddətində son 19 illik bir tarix isə muxtariyyətdən qaynaqlanmaqla on illər ərzində keçilməyən yolun fəthidir. Ona görə də bu gün Naxçıvan Muxtar Respublikası Azərbaycanın digər bölgələri üçün bir nümunə gücündə, qədim diyarımızın nail olduğu intibah mərhələsi özünün zirvə nöqtəsindədir. Bugünkü Naxçıvanı olduğu kimi təsvir etmək imkan daxilində deyil. Qədim diyarımızı ancaq görməklə öyrənmək olar. Öyrənmək olar ki, bir-birinin əksi olan “blokada” və “intibah” sözlərinin muxtar respublikanın hərtərəfli inkişafını ifadə edən cümlələrdə necə işlədilməsi dünya tarixində tək Naxçıvanda mümkün olub.**

**Sara ƏZİMOVA**

*Məqalə “Muxtariyyətin intibahı: 1995-2014” müsabiqəsinə təqdim olunmaq üçündür*

# Mədəniyyətimizin “Naxçıvan modeli”



***Dünyanın bir çox ölkələrində və meqapolislərində olmuşam. Adətən, nabələd məkana bələd olmaq istəyənlər əvvəlcə həmin yerin bazarına və qəbiristanlığına baş çəkir: insanların düzlük və düzən saflığına şahidlik etmək üçün. Ancaq söhbət xarici ölkələrdən gedəndə, ilk növbədə, yadında ilk qarşılama təəssüratı olur.***

Moskvanın, İstanbulun, Strasburqun, Nyu-Yorkun, Romanın, Budapeştin, Parisin aeroportlarından aldığım təəssüratı və yaşadığım ləzzəti bu dəfə mən Naxçıvan hava limanından çıxanda aldım.

Mənim üçün, doğrudan da, çox xoş idi ki, ənənəvi hay-küylü, maşınları kimi özlərinin də üst-başı bulaşıq, qaraçı kimi adam soymaq amaclı, “qaz” axtaran, hərifə cuman klassik “xalturşik”i yox, tərtəmiz taksilərində ədəblə sürücülük edən, müştərinin istəyi ilə uyğunlaşan, müştəri sual verdikdə mərifətlə və etiket qaydalarına müvafiq cavab borcundan çıxan tam fərqli bir xidmət personalı gördüm.

Yol hərəkəti qaydalarına dəqiqliklə riayət edən və artıq regionda bunun hamı üçün – sadə kəndlidən tutmuş məmur və övladları da daxil istisnalıq olmayan – bir qaydaya çevrildiyinin fərqinə vardım. İstənilən bir kimsə buna şahidlik edə bilər: nəinki günlərlə, hətta aylarla belə izləməli olsanız da, Naxçıvanın bu gün sərgilədiyinə şahid olduğum “şəhər mədəniyyəti” kriteriyalarında bir çatışmazlıq görməzsiniz.

Və 4 il öncə bir cüt qoşa yollu asfaltın sanki bu dəqiqə istifadəyə verilmiş halı, sərnişin amilinin üstünlüyü məni heyranlıqdan bir az da o tərəfə apardı. Daxilən Azərbaycan əxlaqını, mentalitetini bütün xalqlar üçün nümunə saymaq vətənpərvərliyim öz yerində, amma onu da etiraf edim ki, biz hər zaman istədiyimiz xalqı və ölkəni görmürük... Yolüstü Naxçıvanda olduğum son səfərim zamanı mən Avropanı gördüm: belə deyək ki, “miniavropa modeli”ni.

Hollandı, almanı, ingilisi, ispanı nümunə gətirməyə daha ehtiyac yoxdur; artıq hamı bilir ki, eyvandan paltar asılmaz.

Artıq hamı bilir ki, siqaretin kötüyünü küçəyə, səkiyə atmaq olmaz! Ən azından mən gəzdiyim küçələrdəki səliqə-sahmanı görəndə, keçirdiyim qürur hissiylə bahəm, o təmizliyi pozmağa çalışanlara öz içimdə bir kin bəslədim.

Artıq hamı bilir ki, dəfn mərasimi molla qarnı doyurmaq üçün, “ac-yalavac karuseli” və “mərhumun vizit kartı” deyil.

Artıq hamı bilir ki, bu şəhərin yaşam tərzi var.

Bir vaxtlar küçələrində, səkilərində yel vurub yengələr oynayan şəhərin indiki yaşıllığı artıq o qənaəti yaradır ki, Naxçıvan bölgənin oksigen bazasıdı; həmişəyaşıl ağaclarla birgə, mövsümün donunu bəzəyən flora və faunamızın ekzotik və həm də nadir nümunələri təkcə göz oxşamır, eyni zamanda ruha və düşüncəyə rahatlıq gətirir: bu məkan bizim doğma Azərbaycanımızın bir parçasıdı.

Mən Naxçıvandan razı halda Türkiyəyə üz tutdum və ilk dəfə heyranlıqla qədəm qoyduğum Türkiyəyə öz heyranlığımla gəldim: bu, Avropa yaşam modelinin Naxçıvan modeliydi.

Naxçıvanda coğrafi obrazın avropalaşmış görüntü modeliylə bərabər, adamlarının avropalılaşma modelinə inam var: düz adamların yalanı özlərinə yük etmək kimi yabançı xisləti olmur.

Öyrəndiyimiz və razılaşdığımız ilk nümunə dəfn və yas mərasimiylə bağlıydısa, deməli, biz qalan pis adətləri də elə onların timsalında dəfn edəcəyik!

İstənilən halda...

**Anar YUSİFOĞLU**

***Aktual.az informasiya agentliyi***

23 dekabr bələdiyyə seçkiləri günüdür

## Bələdiyyələr vətəndaş cəmiyyətinin inkişafında mühüm vasitədir

***Bələdiyyələr vətəndaş cəmiyyətinin təşkilinin və fəaliyyətinin elə sistemidir ki, müvafiq ərazidə yaşayan əhalinin maraq və mənafeləri üçün müvafiq ərazi vahidində mövcud olan problemlərin həllində, yerli büdcənin formalaşdırılması və istifadə edilməsində, həmçinin yerli əhəmiyyətli digər məsələlərdə həmin hakimiyyət orqanına müstəqillik verilir. Bu da dövlət hakimiyyətinin həyata keçirilməsində çevikliyin və səmərəliliyin təmin olunmasına xidmət edir. Müasir demokratik, hüquqi dövlətlərdə bu cür əks-mərkəzləşdirmə siyasətinin aparılması dövlətin və cəmiyyətin inkişafı üçün mühüm əhəmiyyət daşıyır.***

Məhz bu baxımdan ümummilli liderimiz Heydər Əliyev yeni müstəqillik əldə etmiş ölkəmizdə demokratik prinsiplərin bərqərar olunması və hüquqi dövlət quruculuğu istiqamətində qısamüddətli nailiyyətlərin əldə edilməsi üçün müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında yeni bir institutun – yerli özünüidarəetmənin təsis olunmasına nail olmuşdur. Bundan sonra yerli özünüidarəetmənin fəaliyyəti və inkişafı ilə əlaqədar qəbul olunmuş normativ-hüquqi aktlar, aparılmış məqsədyönlü islahatlar ulu öndər tərəfindən qarşıya qoyulmuş məqsədə addım-addım yaxınlaşdırmışdır.

Yerli özünüidarəetmə orqanları Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinin II hissəsinə müvafiq olaraq seçkilər əsasında yaradılır ki, bu işdə də seçkilərin hazırlanıb keçirilməsini təmin etməli olan seçki komissiyalarının üzərinə mühüm məsuliyyət düşür. Artıq dördüncü dəfədir ki, ölkəmizdə bələdiyyə seçkilərinin keçirilməsinə hazırlıq prosesi gedir. Bu prosesdə ən mühüm mərhələlərdən biri namizədlərin irəli sürülməsi və qeydiyyatıdır. Vətəndaşlar əlavə vaxt və vəsait itkisinə məruz qalmamaq üçün bələdiyyə üzvlüyünə namizədliyə dair qanunvericiliyin tələblərini diqqətlə öyrənməli, öz namizədliklərini irəli sürərkən tələb olunan şərtlərə cavab verib-vermədiyinə əmin olmalıdırlar. Bələdiyyə üzvlüyünə namizədliyə dair ilkin şərtlər Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsi ilə müəyyən olunmuşdur. Hər kəsin seçib-seçilmək hüququ vardır, lakin məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin fəaliyyət qabiliyyəti bərpa olunmayana qədər bu hüquqdan istifadə etmək imkanları olmur. Həmçinin hərbi qulluqçular, hakimlər, dövlət məmurları və din xadimləri peşələri ilə əlaqədar olan fəaliyyətlə məşğul olduqları müddətdə seçki orqanlarına seçilə bilmirlər. Bu şəxslər namizədliklərini irəli sürərkən seçiləcəkləri təqdirdə həmin peşələrlə əlaqədar fəaliyyətə xitam verəcəklərinə dair öhdəlik götürürlər. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslər də bu cəzanı çəkdikləri müddətdə öz namizədliklərini irəli sürmək hüququna malik deyillər. Qeyd olunanlardan əlavə, həm də Seçki Məcəlləsinin 13.3-cü maddəsində passiv seçki hüququ ilə əlaqədar məhdudiyyətlər müəyyən olunmuşdur. Məsələn, ağır cinayətlərin törədilməsinə görə məhkum olunmuş şəxslər, ikili vətəndaşlığı və xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikasının vətəndaşlarının seçkilərdə namizəd qismində iştirakları qadağan edilir.

Ümumiyyətlə, digər seçkilərlə müqayisədə bələdiyyə üzvlüyünə namizədliklərin irəli sürülməsi ilə bağlı şərtlər azdır. Belə ki, seçki günü də daxil olmaqla seçkilər günü 21 yaşı tamam olan və yaşı 21-dən yuxarı olan, müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər. Əsas şərtlər yaş, yaşayış yeri və vətəndaşlıqla əlaqədardır. Şəxsin yaşayış yeri dedikdə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa görə, tam həcmdə fəaliyyət qabiliyyətli şəxsin mülkiyyətçi kimi icarə və kirayə müqaviləsi üzrə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qocalar və əlil evləri başa düşülür. Bu şərtlərə cavab verən şəxslər yaşadıqları ərazidə fəaliyyət göstərən müvafiq dairə seçki komissiyasına yazılı bildiriş verməklə öz namizədliklərini irəli sürə bilərlər. Müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə və ya onun səlahiyyətli nümayəndəsinə namizədliyin müvafiq seçki dairəsi üzrə irəli sürülməsini təsdiq edən qərar təqdim edir. Belə bir qərar verildikdən sonra namizədliyini irəli sürən şəxs Seçki Məcəlləsinin 58.1-ci maddəsi ilə tələb olunan seçki sənədlərini səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat $18^{00}$-dək müvafiq seçki komissiyasına təqdim etməlidir. Seçki komissiyaları seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, təqdim olunmuş imza vərəqələri sayının seçici imzaları toplanmasının yekunu haqqında protokola uyğunluğunu yoxlayır, sonra isə onların qəbuledilmə tarixini və vaxtını qeyd edərək, namizədə qəbul edilmiş imza vərəqələrinin sayını, oradakı imzaların sayını göstərməklə sənədlərin qəbulu barədə yazılı arayış verir. Seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra ən çoxu 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə qərar qəbul edir. Həmin müddətdə dairə seçki komissiyası təqdim olunmuş sənədlərdə və hər bir namizədin imza vərəqələrində olan məlumatların düzgünlüyünü və namizədlərin irəli sürülməsi prosedurunun Seçki Məcəlləsinin tələblərinə uyğunluğunu yoxlayır.

Bələdiyyə üzvlüyünə qeydə alınmış bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər vəzifələr daşıyırlar. Onlar qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək işlədiyi, qulluq etdiyi və ya oxuduğu yerdən ödənilməyən məzuniyyət verilməsi əsasında istənilən gün və vaxt işdən, tədrisdən və ya xidmətdən azad edilə bilərlər. Həmçinin qeydə alınmış namizədlər tabeliklərində olduqları vəzifəli şəxslərin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla bilməz və ya razılığı olmadan başqa işə, başqa yerdə işləməyə (oxumağa, xidmət keçməyə) keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz, hərbi xidmətə və ya toplanışa çağırıla bilməzlər. Müvafiq prokurorun razılığı olmadan namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməzlər. Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı seçki komissiyasını bu barədə dərhal xəbərdar edir. Həmçinin qeydə alınmış namizədlərin namizədlik statuslarından imtina edə bilməsi ilə bağlı məsələlər də seçki qanunvericiliyi ilə tənzimlənir. Qeydə alınmış namizəd səsvermə gününə azı 10 gün qalmış müvafiq seçki komissiyasına yazılı ərizə verərək namizədliyini geri götürə bilər. Daxil olmuş ərizə əsasında müvafiq seçki komissiyası ərizə vermiş namizədin qeydiyyatının ləğvi barədə 1 gün müddətində qərar qəbul edir.

Göründüyü kimi, bələdiyyə seçkilərində namizədliklərin irəli sürülməsi və qeydiyyatı prosesində vətəndaşların öz namizədliklərini azad şəkildə irəli sürmələri üçün kifayət qədər qanunvericilik bazası və real imkanlar mövcuddur. Həmçinin qeydə alınmış namizədlərin statusu ilə əlaqədar olan imtiyazlar imkan verir ki, onlar öz seçkiqabağı təbliğatlarını keyfiyyətlə təşkil edib apara bilsinlər. Bu baxımdan ölkəmiz üçün mühüm əhəmiyyətə malik olan yerli özünüidarəetmə orqanlarının təşkili prosesində istər namizədliklərin irəli sürülməsi, istərsə də səsvermə zamanı vətəndaşlar aktiv olmalı, bu prosesdən kənarda qalmamalıdırlar.

***Əli QƏDİMOV***
***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini***

***Naxçıvan Dövlət Universitetində (NDU) görkəmli rus şairi M.Y.Lermontovun anadan olmasının 200 illiyinə həsr olunmuş "Sevdim Azərbaycanı" adlı elmi-praktik konfrans keçirilib.***

## Ali təhsil müəssisələrinin birgə onlayn elmi-praktik konfransı



Konfrans universitetin Rus dili və ədəbiyyatı kafedrası ilə Rusiyanın Penza Dövlət Universitetinin (PDU) Rus dili xarici dil kimi kafedraları arasında onlayn şəkildə keçirilməsi ilə yaddaqalan olub. NDU-nun rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov və PDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Yuriy Mazey belə konfransların virtual əməkdaşlığın inkişafı, xalqlar arasında elm və təhsil sahəsində tərəfdaşlığın, ədəbi-mədəni əlaqələrin möhkəmlənməsində əhəmiyyətli rol oynadığından danışıblar. Çıxışlarda həmçinin naxçıvanlı tələbələrin tələbə mobilliyi əsasında Penza Dövlət Universitetində bir semestr ərzində təhsil almalarından, müəllim və tələbə mübadiləsinin gələcək inkişafı istiqamətində görüləcək işlərdən bəhs edilib.

NDU-nun Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı və PDU-nun Rus dili xarici dil kimi kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Vera Şmelkova şairin zəngin bədii irsi, klassik rus poeziyasındakı özünəməxsus yeri haqqında maraqlı fikirlər səsləndiriblər.

NDU-nun Rus dili və ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Hüseyn Adıgözəlov "M.Y.Lermontov və Azərbaycan" mövzusunun mübahisəli aspektləri" mövzusunda məruzə edib. Hüseyn Adıgözəlov M.Y.Lermontovun Şuşada olması, görkəmli Azərbaycan mütəfəkkiri və dramaturqu Mirzə Fətəli Axundzadə ilə şəxsi tanışlığı, M.F.Axundzadənin "Puşkinin ölümünə Şərq poeması"nı M.Y.Lermontovun "Şairin ölümü" şerinin təsiri ilə yazması haqqında mübahisəli elmi məsələlərə aydınlıq gətirib, M.Y.Lermontov və Azərbaycan mövzusunda həllini gözləyən problem mövzulardan danışıb.

Konfransda PDU-nun Rus dili xarici dil kimi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Tamara Surkova "M.Y.Lermontov ensiklopediyası" şairin yaradıcılığının tədqiqinin unikal təcrübəsi kimi", həmin kafedranın baş müəllimi Tatyana Kolyujko "M.Y.Lermontov və Penza diyarı", NDU-nun "xarici dil müəllimliyi (rus dili)" ixtisasının tələbələri Mehri Rəcəbova "M.Y.Lermontov yaradıcılığında Azərbaycan", Heyran Babazadə "Azərbaycan şairlərinin M.Y.Lermontova ithafı" mövzularında məruzələr ediblər.

Sonda hər iki universitetin tələbələrinin ifasında böyük rus şairinin şeirləri Azərbaycan, rus, türk, ərəb və çin dillərində bədii qiraət olunub.

**Mehriban SULTAN**

## Uşaqların icbari dispanserizasiyası uğurla davam etdirilir

*Uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə görülən işlərin, aparılan islahatların məntiqi davamı kimi bu ildən etibarən ölkəmizdə uşaqlar icbari dispanserizasiyaya cəlb ediliblər.*

Xatırladaq ki, bu tədbir uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinin təşkilati-hüquqi əsaslarını, uşaqlar arasında aparılan müalicə-profilaktika tədbirlərini müəyyən edən, bu sahədə yaranan münasibətləri tənzimləyən "Uşaqların icbari dispanserizasiyası haqqında" 5 mart 2013-cü il tarixli Azərbaycan Respublikası Qanununun və ölkə Prezidentinin 10 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiqlənən "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq aparılır.

Son illər muxtar respublikamızda da bu sahədə mühüm tədbirlər həyata keçirilib. Uşaqlara tibbi yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, onların müasir tibbi texnika və ləvazimatlarla təchiz edilməsi, yeni tibbi texnologiyaların tətbiqi, tibbi kadrların peşə səviyyəsinin artırılması və digər tədbirlər muxtar respublikada uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin artırılmasına imkan verib. Həyata keçirilən bütün bu tədbirlər nəticəsində uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur.

İcbari dispanserizasiya zamanı valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud olan uşaqların dispanserizasiyasına daha həssaslıqla yanaşılır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində bununla əlaqədar işçi qrupu yaradılıb və tədbirlər planı hazırlanıb. Tədbirlər planına əsasən, uşaqlara xidmət göstərən tibb müəssisələrində, ilk növbədə, 0-17 yaş arası uşaqların adlı siyahısı hazırlanıb, pediatr, LOR-həkim, oftalmoloq, stomatoloqdan ibarət həkim briqadaları təşkil olunaraq ilkin dispanser müayinələrə başlanılıb. Bu müayinələr zamanı uşaqların antropometrik ölçülərinə, görmə qabiliyyətinin, dişlərin, əsnəyin və onurğanın vəziyyətinə xüsusi diqqət yetirilib, xəstə, xəstəliyə şübhəli və ya meyilli uşaqların aşkar edilərək xüsusi müayinə vasitələrindən istifadə edilməsinə diqqət edilib.

Sonrakı mərhələdə müayinələr zamanı ehtiyac olan hallarda xəstə uşaqların daha yüksəkixtisaslı mütəxəssis həkimlər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq və sair) tərəfindən konsultasiyası, lazım olan hallarda isə stasionar müalicəsi təşkil olunub.

Aşkar olunan xəstə və xəstələnmə riski yüksək uşaqların tibbi-sosial müəssisələrdə yerləşdirilməsi, ehtiyac olan hallarda reabilitasiya tədbirlərinin və sanator-kurort müalicəsinin həyata keçirilməsi işləri təmin edilib. Dispanser qeydiyyatına alınmış uşaqlara müşahidə kartları açılıb və onlar arasında mövcud təlimata uyğun müalicə-profilaktika tədbirləri həyata keçirilib.

Bu günə qədər 127 min uşağın icbari dispanserizasiyadan keçməsi üçün bu dispanserizasiyanın aparılmasının əhəmiyyəti barədə maarifləndirici tədbirlər keçirilib. Bütün bunların nəticəsində bu günə qədər 75104 uşaq icbari dispanserizasiyadan keçirilib.

Dispanserizasiyadan keçən uşaqların Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində registri yaradılıb. Bu günə qədər 19089 uşaq haqqında məlumat registrə daxil olunub.

Dispanserizasiyanın uğurla aparılmasında valideynlərin, məktəbəqədər və məktəb-təhsil işçilərinin də böyük rolunu qeyd etmək lazımdır. Onlar uşaqların müayinələr üçün gətirilməsində, xüsusi müayinələrdən keçirilməsində fəal iştirak etməlidirlər. Əminliklə demək olar ki, valideynlər və digər qurum işçiləri tibb işçilərinə çox yaxından köməklik göstərməklə gələcəyimiz olan uşaqların sağlamlığı üçün əllərindən gələni əsirgəmirlər. Çünki ulu öndərimizin dediyi kimi: "Bu gün doğulan, dünyaya gələn uşaqlar, bu gün ilk addımlarını atan körpələr 21-ci əsrdə dünyanın məsələlərini həll edəcəklər, bəşəriyyəti yaşadacaqlar. Ona görə də uşaqların sağlamlığının təmin olunması və qorunması hər bir dövlət üçün çox böyük və müqəddəs vəzifədir".

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səyyar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 972